Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

Haraya: **Təmimi**

Göndərilmə nömrəsi: S/15-4746 /15/17 Tarix:03.03.2017

Sənəd necə göndəriləcək: Elektron poçt

Səhifələrin sayı: 8

Məhdudluq qrifi: Adi

Təcililiyi: Çox təcili

Vacibliyi: Çox vacib

**Azərbaycan Respublikasının**
**diplomatik nümayəndəlik və baş konsulluqlarının rəhbərlərinə**

**Hörmətli diplomatik nümayəndəlik və baş konsulluqların rəhbərləri,**

Bununla, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Rəhbəri Ramiz Mehdiyevin 32 saylı, 21.02.2017-ci il tarixli IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsinə dair Sərəncamını işinizdə istifadə üçün Sizlərə göndəririk.

Hörmətlə,

Konsulluq İdarəsinin rəis müavini — Cavidan Hüseynov

Şöbə müdiri — Toğrul Sadıqov

İcraçı — Aysel Həşimova

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASI RƏHBƏRİNİN SƏRƏNCAMI**

№ 32 "21" fevral 2017-ci il

**Bakı şəhərində IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında**

Bakı şəhərində IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. 2017-ci il 4–6 may tarixlərində Bakı şəhərində IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planında nəzərdə tutulmuş işlərin həyata keçirilməsi üçün məsul şəxslər həmin tədbirlərin yerinə yetirilməsini təmin etsinlər.

3. Tədbirlər Planının icrasına nəzarət Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilsin.

**Ramiz Mehdiyev**

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin 2017-ci il " 21 " fevral tarixli
32 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

## IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ilə bağlı
## TƏDBİRLƏR PLANI

Bakı şəhəri, 4–6 may 2017-ci il

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Xarici ölkələrin dövlət və hökumət başçıları, yüksək səviyyəli rəsmilər, beynəlxalq təşkilatların rəhbər şəxsləri və nümayəndələrinin Foruma dəvət edilməsi | Xarici İşlər Nazirliyi,<br>Mədəniyyət və Turizm Nazirliyi | Elmar Məmmədyarov<br>Əbülfəs Qarayev | fevral–aprel 2017-ci il |
| 2. | Xarici ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq qurumların rəhbər şəxsləri və digər yüksək səviyyəli dövlət rəsmilərinin Forumda iştirakı ilə bağlı lazımi işlərin həyata keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi,<br>Xarici İşlər Nazirliyi,<br>Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti,<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsi | Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov<br>Elçin Bağırov<br>Novruz Məmmədov | mart–may 2017-ci il |
| 3. | Forumun və onunla bağlı digər tədbirlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi və tərtibatı | Mədəniyyət və Turizm Nazirliyi,<br>Heydər Əliyev Mərkəzi,<br>Bakı Konqres Mərkəzi | Əbülfəs Qarayev<br>Anar Ələkbərov | mart–may 2017-ci il |
| 4. | Xarici ölkələrin dövlət və hökumət başçılarının, beynəlxalq qurumların rəhbər şəxslərinin iştirak edəcəyi tədbirlərin xüsusi proqramının hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi,<br>Xarici İşlər Nazirliyi,<br>Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti,<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsi | Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov<br>Elçin Bağırov<br>Novruz Məmmədov | aprel–may 2017-ci il |

| | | | | |
|---|---|---|---|---|
| 5. | Forum və onunla bağlı digər tədbirlərin keçiriləcəyi yerlərin təhlükəsizliyinin təmin edilməsi | Xüsusi Dövlət Mühafizə Xidməti,<br>Daxili İşlər Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti | Vaqif Axundov<br>Ramil Usubov<br>Mədət Quliyev | may<br>2017-ci il |
| 6. | Foruma dair sənədlərin layihələrinin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi,<br>Xarici İşlər Nazirliyi | Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov | mart–may<br>2017-ci il |
| 7. | Forumla əlaqədar çap, təbliğat və təşviqat materiallarının hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi | Əbülfəs Qarayev | mart–may<br>2017-ci il |
| 8. | Forum iştirakçıları üçün beclərin hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi,<br>Xüsusi Dövlət Mühafizə Xidməti | Əbülfəs Qarayev<br>Vaqif Axundov | aprel–may<br>2017-ci il |
| 9. | Forum çərçivəsində təşkil ediləcək tədbirlərlə bağlı tərəfdaş beynəlxalq qurumlar tərəfindən (YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, İSESKO və s.) göndəriləcək müvafiq materialların qəbulu və rüsumsuz gömrük rəsmiləşdirilməsinin təmin edilməsi | Dövlət Gömrük Komitəsi,<br>Mədəniyyət və Turizm Nazirliyi | Aydın Əliyev<br>Əbülfəs Qarayev | aprel–may<br>2017-ci il |
| 10. | Forum iştirakçıları və onları müşayiət edən şəxslərin Azərbaycan Respublikasına gəlişi ilə bağlı zəruri məsələlərin həlli, o cümlədən vizaların rəsmiləşdirilməsinin təmin olunması | Xarici İşlər Nazirliyi,<br>Dövlət Miqrasiya Xidməti,<br>Dövlət Sərhəd Xidməti,<br>Dövlət Gömrük Komitəsi,<br>Mədəniyyət və Turizm Nazirliyi,<br>"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN xidmət" | Elmar Məmmədyarov<br>Firudin Nəbiyev<br>Elçin Quliyev<br>Aydın Əliyev<br>Əbülfəs Qarayev<br>Cahangir Əsgərov<br>İnam Kərimov | mart–may<br>2017-ci il |
| 11. | Forumun iştirakçıları və qonaqların qarşılanması, yola salınması, yerləşdirilməsi, onları müşayiət edən şəxslərin müəyyənləşdirilməsi | Mədəniyyət və Turizm Nazirliyi,<br>Xarici İşlər Nazirliyi | Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov | aprel<br>2017-ci il |

| | | | | |
|---|---|---|---|---|
| 12. | Forum iştirakçıları və qonaqların qarşılanması, yola salınması ilə bağlı Heydər Əliyev Beynəlxalq Hava Limanında qərargahın yaradılması, növbətçiliyin müəyyən olunması, VİP salonda otaqların hazırlanması, həmçinin qonaqlara xidmət göstərəcək nəqliyyat vasitələrinin sərbəst giriş-çıxışının təmin edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Xarici İşlər Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti | Əbülfəs Qarayev<br>Oqtay Şahbazov<br>Elmar Məmmədyarov<br>Vaqif Axundov<br>Aydın Əliyev<br>Elçin Quliyev<br>Cahangir Əsgərov | 1–9 may 2017-ci il |
| 13. | Forumun açılış mərasiminin təşkili | Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Daxili İşlər Nazirliyi, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti | Elçin Bağırov<br>Oqtay Şahbazov<br>Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov<br>Vaqif Axundov<br>Ramil Usubov<br>Anar Ələkbərov<br>Arif Alışanov | 5 may 2017-ci il |
| 14. | Forum iştirakçıları üçün mədəni proqramların təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi | Əbülfəs Qarayev<br>Əsgər Ələkbərov<br>İlqar Mustafayev | mart–may 2017-ci il |
| 15. | Forum iştirakçıları üçün şəhər gəzintisi turları proqramının hazırlanması və proqram üzrə hərəkət marşrutunun, məkanların təhlükəsizliyinin təmin edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti | Əbülfəs Qarayev<br>Vaqif Axundov<br>Ramil Usubov<br>Mədət Quliyev | may 2017-ci il |
| 16. | Xarici ölkələrin dövlət və hökumət başçılarının, beynəlxalq qurumların rəhbər şəxslərinin iştirak edəcəyi tədbirlərin xüsusi proqramının hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti, Xarici İşlər Nazirliyi | Əbülfəs Qarayev<br>Elçin Bağırov<br>Elmar Məmmədyarov | mart–may 2017-ci il |

| | | | | |
|---|---|---|---|---|
| 17. | Forumda iştirak edəcək dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, nazirlər və digər rəhbər şəxslərin xanımları üçün xüsusi proqramın hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti, Xarici İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Əbülfəs Qarayev<br>Elçin Bağırov<br>Elmar Məmmədyarov<br>Hicran Hüseynova | aprel–may 2017-ci il |
| 18. | Forum çərçivəsində Nazirlər Konfransının təşkili | Mədəniyyət və Turizm Nazirliyi | Əbülfəs Qarayev | aprel–may 2017-ci il |
| 19. | Forum çərçivəsində Beynəlxalq Təşkilatların Rəhbərlərinin I Yüksək Səviyyəli Görüşünün təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi | Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov | aprel–may 2017-ci il |
| 20. | Forum çərçivəsində keçiriləcək sessiyaların təşkili və aidiyyəti üzrə dövlət qurumlarının həmin sessiyalarda iştirakı | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidməti, Xarici İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti | Əbülfəs Qarayev<br>Kamal Abdullayev<br>Elmar Məmədyarov<br>Şahin Müstafayev<br>Mikayıl Cabbarov<br>Ramin Quluzadə<br>Mübariz Qurbanlı<br>Azad Rəhimov<br>Firudin Nəbiyev<br>Hicran Hüseynova<br>Akif Əlizadə<br>Azad Məmmədov<br>Arif Alışanov | may 2017-ci il |
| 21. | Forum çərçivəsində keçiriləcək sessiyalarda universitetlərin müəllim, tələbə və gənclər təşkilatlarının iştirakının təmin edilməsi | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | Mikayıl Cabbarov<br>Azad Rəhimov<br>Əbülfəs Qarayev | 4–6 may 2017-ci il |

| | | | | |
|---|---|---|---|---|
| 22. | Forumun təşkilinə könüllülərin cəlb olunması | Mədəniyyət və Turizm Nazirliyi,<br>Təhsil Nazirliyi,<br>Gənclər və İdman Nazirliyi,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu | Əbülfəs Qarayev<br>Mikayıl Cabbarov<br>Azad Rəhimov<br>Fərhad Hacıyev | aprel–may 2017-ci il |
| 23. | Forumun yerli və xarici aparıcı kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılması məqsədi ilə KİV nümayəndələrinin siyahılarının tərtib edilməsi | Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibinin xidməti,<br>Xarici İşlər Nazirliyi,<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsi,<br>Mədəniyyət və Turizm Nazirliyi,<br>"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti,<br>Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) | Azər Qasımov<br>Elmar Məmmədyarov<br>Əli Həsənov<br>Əbülfəs Qarayev<br>Arif Alışanov<br>Aslan Aslanov | mart–aprel 2017-ci il |
| 24. | Forumun işinin təşkili və işıqlandırılması üçün tədbirlərin keçiriləcəyi yerlərdə müvafiq katiblik və mətbuat mərkəzlərinin yaradılması, onların zəruri avadanlıqlarla təchiz edilməsi (telefon nömrələrinin ayrılması, xətlərin çəkilməsi, faksların birləşdirilməsi, şəbəkənin yaradılması, internetə fasiləsiz sürətli bağlantının təmin edilməsi) | Xüsusi Dövlət Mühafizə Xidməti,<br>Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi,<br>Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,<br>Mədəniyyət və Turizm Nazirliyi,<br>Heydər Əliyev Mərkəzi,<br>Bakı Konqres Mərkəzi | Vaqif Axundov<br>Oqtay Şahbazov<br>Ramin Quluzadə<br>Əbülfəs Qarayev<br>Anar Ələkbərov | |
| 25. | Forumun gedişatı və əhəmiyyəti barədə müvafiq televiziya verilişləri, xəbərlər və radio vasitəsilə ictimaiyyətin ətraflı məlumatlandırılması, Forumun işinin işıqlandırılmasına rəsmi informasiya dəstəyinin təmin edilməsi | Mədəniyyət və Turizm Nazirliyi,<br>"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti,<br>Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC),<br>"Azərbaycan" qəzeti | Əbülfəs Qarayev<br>Arif Alışanov<br>Aslan Aslanov<br>Bəxtiyar Sadıqov | aprel–may 2017-ci il |

| | | | | |
|---|---|---|---|---|
| 26. | Forumun internet vasitəsilə canlı yayımının təşkili üçün müvafiq işlərin həyata keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti | Əbülfəs Qarayev<br>Arif Alışanov<br>Ramin Quluzadə<br>Vaqif Axundov | 4–6 may 2017-ci il |
| 27. | Xarici ölkələrdən gələn iştirakçıların qaldığı mehmanxanalarda xüsusi qərargahların yaradılması və zəruri avadanlıqlarla təchiz edilməsi | Mədəniyyət və Turizm Nazirliyi | Əbülfəs Qarayev | 2–8 may 2017-ci il |
| 28. | Forum iştirakçılarının və qonaqların nəqliyyat vasitələri ilə təmin edilməsi | Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Mədəniyyət və Turizm Nazirliyi | Oqtay Şahbazov<br>Əbülfəs Qarayev | 2–9 may 2017-ci il |
| 29. | Forumda və onunla bağlı digər tədbirlərdə iştirak edən qonaqların təhlükəsizliyinin və onların hərəkət marşrutu üzrə müşayiət olunmasının təmin edilməsi | Daxili İşlər Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti | Ramil Usubov<br>Vaqif Axundov<br>Mədət Quliyev | 2–9 may 2017-ci il |
| 30. | Forumun keçirildiyi binalarda və iştirakçıların qaldığı mehmanxanalarda səyyar tibbi və yanğından mühafizə xidmətlərinin təşkili | Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi | Oqtay Şirəliyev<br>Kəmaləddin Heydərov | 2–9 may 2017-ci il |
| 31. | Forumla bağlı məlumat lövhələri və təşviqat materiallarının yerləşdirilməsi üçün məkanların müəyyən edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti | Əbülfəs Qarayev<br>Hacıbala Abutalıbov | 25 aprel – 9 may 2017-ci il |
| 32. | Forum iştirakçılarının və onları müşayiət edən şəxslərin hədiyyə və suvenirlərlə təmin edilməsi | Mədəniyyət və Turizm Nazirliyi | Əbülfəs Qarayev | may 2017-ci il |
| 33. | Forum və mədəniyyətlərarası dialoq proseslərində Azərbaycanın rolu, "Bakı Prosesi" barədə beynəlxalq miqyasda təbliğat-təşviqat işlərinin gücləndirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi | Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov | mart–dekabr 2017-ci il |

| | | | | |
|---|---|---|---|---|
| 34. | Foruma qədər və forumdan sonra beynəlxalq təşkilatların (YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, İSESKO və s.) baş qərargahlarında, xarici ölkələrdə Forumun Beynəlxalq İşçi qrupunun müvafiq iclaslarının, həmçinin "Bakı prosesi"nin və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təqdimatlarının təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi | Əbülfəs Qarayev<br>Elmar Məmmədyarov | 2017-ci il ərzində |